# USTAD YANAN OCAQDA

## ŞAİR HÜSEYN KÜRDOĞLUNUN HƏYATI VƏ YARADICILIĞI HAQQINDA MƏQALƏLƏR, XATİRƏLƏR, DÜŞÜNCƏLƏR



*Əli Rza XƏLƏFLİ*

*(Əvvəli ötən saylarımızda)*

### SIRTI YOLUQ BOZ QURDUN DASTANI

*Yazı var yazının baş yazısıdır,*
*Yazı var pozulmaz, daş yazısıdır.*
*Yazı var yazılmır, qələmə gəlmir,*
*Heyrətlə çəkilmiş qaş yazısıdır.*

Əli Rza Xələfli

*Yol tapmadı qəlbimə əzəl gündən yalan söz,*
*Gizli bir xəzinədir sənə qurban olan söz.*
*Basdırsan bir bağçada şair Kürdoğlunu sən,*
*Yeddi rəngdə gül açar ürəyində qalan söz.*

Hüseyn Kürdoğlu

*Hər bir xalqın tarixinin qrafiki kardioqrammı xatırladır. Tibb elmində düz xətt ölümü bildirir. Tarixdə isə xalqın yeni sıçrayış üçün güc yığdığı zamanı.*

Oljas Süleymenov

Bir dəfə atamın da olduğu bir yığnaqda söz canavardan düşmüşdü. Biri *«ağzı yanmış»* deyir, yamanlığından danışır, başqası *«qurd»* deyir, qorxmazlığını öyürdü. Dilim dinc durmadı, soruşdum ki, qurd nədi, canavar nədi? Yığnağa sükut çökdü. Çoxu dedi elə ikisi də bir şeydir. Handan-hana atam dilləndi: *«Adamların yaxşısı, mərdi var ha, bax, o, qurddu. Pisi, namərdi də canavar... İnsan var yıxır, dağıdır, insan da var qoruyur...»* Atam mifi bilməzdi. Amma nədənsə, hansı yaddaş duyğusunun təsiri iləsə mifin istədiyi cavabı vermişdi.

* * *

Qədim türklərdə *«uğur»*, *«yol»*, *«yurd»* və nəhayət, *«Boz Qurd»* obrazları bir-birindən ayrılmazdır. Və düşüncə başlanğıcından qaynaq götürərək, biri-digərindən güc alaraq, biri digərini qoruyaraq, biri digərinə məna, məzmun verərək, türk mifoloji düşüncəsinin ilkin modelini müəyyən izlərlə olsa da, zəmanəmizə qədər gətirib çıxarmışdır. *«Mifoloji məkan kodu»* olaraq *«yol» «uğur»*dan ayrılmamış, *«uğur»*u onu qoruyan tanrısal güc kimi öz içərisinə almışdır. Yol Türkü istəyinə çatdıran vasitə - arac və bu aracın bələdçisi Boz Qurd - *«sırtı yoluq Boz Qurd»* **(«Dədə Qorqud Kitabı»nın Vatikan nüsxəsində bu ifadə «üzü nurlu boz qurd» anlamında işlənib)** bu gün də mədəni-mənəvi düşüncəmizin ana yasasıdır. *«Yol»* sözünün *«qanun»*, *«kitab»* mənası bu gün də canlı dildə özünü qoruyur. Bütün obrazların yolu yurdda birləşir. Boz Qurd türkü yurda gətirir; Bizim indiki anlamımızda Vətənə... **(bax: Mirəli Seyidov «Azərbaycan xalqının soykökünü düşünərkən», Oljas Süleymenov «Az-ya», «Dədə Qorqud» kitabı, Türk mifoloji sözlüyü)**. Sırtı yoluq Boz Qurd **(üzü işıqlı Boz Qurd)** obrazında qaranlığı yaran, toranlığı dağıdan anlamı sözün insanın daxili aləmini işıqlandırma missiyası ilə birləşir. Sözü missiya kimi, daşıyıcı kimi qavrayan sənətkarda gücə, qüdrətə çevrilir.

*«Sırt»* sözü bu gün də canlı dildə müxtəlif məna çalarları ilə işlənməkdədir. **Qəzəbə dolmuş adama** *«sırtını saxla»* **(hirsini, hikkəni)** deyirlər. Atın sırtı **(atın qabaqdan görünüşü)**, Qurdun sırtı **(Qurdun boynu, sinəsi)** ifadələri elat adamlarının danışığında var. *«Sırt»* sözünün *«güc»*, *«qüdrət»*, *«qadirlik»* anlamı müasir poeziyamızda da özünü qoruyub. Müasir poeziyamızın canlı dilə bələdliyi ilə seçilən şairlərimizdən biri Avdı Qoşqarın bir şeirində *«sırt»* ifadəsi güc-qüdrət anlamında çox ustalıqla işlənib:

*Yerdəsən, göydəsən, buludlardasan,*
*Yağan yağışlarda, tökən qardasan;*
*Mənim nəzərimdə ucalardasan,*
*Ucadan görünür sırtın, İlahi!*

Qədim mifoloji düşüncədən gələn *«sırtı yoluq»* **(üzü işıqlı)** mahiyyəti ilahi nur kimi etnosun mənəvi daşıyıcısı olan Böyük söz missionerlərinin ruhunda, varlığında daha qabarıq təzahür edir ki, onlardan biri də Hüseyn Kürdoğludur. Onun zəngin və çoxtərəfli yaradıcılığının baş obrazları sırasında qədim türk mifoloji düşüncəsindən gələn əsas kök, qaynaq obrazların hərəkətverici qüvvə kimi təzahür etməsi göstərir ki, o, ədəbiyyata çörək qazanmaq, şöhrət sahibi olmaq amacı ilə gəlməyibmiş və elə buna görə də ədəbiyyatı varlığında can kimi, ruh kimi, nəfəs kimi daşımışdır. Şeirləri də düşüncə partlayışları zamanı ətrafa səpilən qığılcımlar, işıq nur zərrələri təsiri bağışlayır: *«Yurd yeri»* **(1978)**, *«Qayaqovuşan»* **(1978)**, *«Ağ oğlan»* **(1973)**, *«Sarıbaba»* **(1973)**, *«Çıxım Sarıdaşa»* **(1974)**, *«Kəpəz bənövşəsi»* **(1975)**, *«Həkəri»* **(1975)**, *«İşıqlı»* **(1975)**, *«Ata yurdum»* **(1976)**, *«Unutmaram - Kəpənəkçi»* **(1974)**, *«Mollu kəndi...»* **(1978)**, *«Tərtərin laylası»* **(1978)**... kimi şeirlərinin adlarını sıralayıram. *«Boz qurdum, ulama»* **(1988)** *«Bir palıd yanır»* **(1974)**, *«Nə tez qocalmısan Mil düzü»* **(1988)** elegiyaları üzərində düşüncələrim varlığımı dara çəkir. Təkcə elə bu şeirləri bəs eləyir ki, *«Yurd»*un Hüseyn Kürdoğlunun yaradıcılığında yerini, aparıcı obraz olduğunu görəsən, dərk edəsən. Sözarası onu da qeyd edim ki, ədəbi janrları nəzəri düsturlarla qavrayanların, bu əsərləri də **(sonuncu üç poetik örnək)** *«şeirlər»* sırasında təqdim edənlərin qənaətləri ilə barışa bilmərəm. Çünki bu əsərlərin hər birində mənəvi durum - doğuluşdan yoxuluşacan yaşam öz əksini tapıb. Bu əsərlərin baş obrazları - Boz Qurd, Tək Palıd, Mil düzü obrazları təfəkkürü həm məkan, həm zaman, həm də bu məkan və zaman daxilində baş verən hadisələr baxımından içərisinə alır. Bu əsərlər roman təfəkkürü ilə yazılmış epik-lirik poemalardır.

Əsas obrazları ehtiva edən və artıq adları sıralanan şeirlər Hüseyn Kürdoğlunun yurd düşüncəsinin bütöv mənzərəsini yaradır. Əslində, bu şeirlər təbiət abidələrinin canlı obrazlarını tərənnüm edir, çünki bu təbiət abidələri ayrı-ayrılıqda yurdun hissələridir və bütövlükdə yurdun özüdür. Yurd Hüseyn Kürdoğlunun düşüncəsində yiyəsinin - əyəsinin, sahibinin diriliyini qoruyur, onu canlı varlıq kimi hifz edir.

*«İşıqlı»* şeiri İşıqlı dağının təsviri və tərənnümüdür:

*Qartal dəstə-dəstə uçub dolanır,*
*Sanki pərvanədir başının üstə.*
*Bahar dumanları saçındır sənin*
*Yel vursa tökülər qaşının üstə.*

Orijinal məcazlar, ayrı-ayrı sözlərin poetik yükü İşıqlı dağını rəssam fırçası ilə çəkirmiş kimi gözlərimizin önünə gətirir. Pərvanənin işığa dolanması obrazını yada salan qartalın zirvə boyu uçuşu paralelində xəyalı qanadlandırır, Qoca dağların ağarmış saçı kimi gördüyümüz buludları qaş üstə tökülən tellər kimi düşüncəmizə yığır, xəyallanırıq. Biz də dağın hüsnünü görmüş kimi özümüzü nə qədər xoşbəxt sanırıq: *«Xoşbəxtəm, yenə də hüsnünü gördüm, Səhər dumanıtək çəkildi dərdim»*.

**Hüseyn Kürdoğlunun şeirlərinə xas keyfiyyətdir; təbiətdən də danışanda fikir** şimşək gücü ilə tarixə işıq salır: *«İgidlər canını qurban eyləmiş, Hər kəklik yuvalı daşının üstə»*. Bu misraların açdığı təfəkkür üfüqlərində Azərbaycan tarixini nəinki anmayan düşüncə kütdür, hətta onu görməyən gözlər binadan kordur. Şair bütün mətnaltı düşüncə boyu İşıqlı dağının işığını, nurunu **(əzəmətini, gözəlliyini)** sözə çəkir; biz gündüz günəşin şüaları, axşam ayın nuru ilə gümüşlənən İşıqlını sevgi obrazı kimi qavrayırıq: *«O hansı sevdadır qocaltmaz səni, Qoymaz ki, yaş gələ yaşının üstə»*. Bu yerdə *«Yaylaq nəğməsi»* şeirində özü demiş insan özü də *«Yaxın düşməz qəmə-dərdə, Könül dinər pərdə, pərdə, Çağlamazmı belə yerdə, Şairin bulaq sinəsi»*.

İşıqlı dağı çox şairlərin ilham qaynağı olub. İşıqlı çox uğurlu şeirlərin dünyaya yolunu açıb. Şair Ağa Laçınlı da *«İşıqlı»* **(1970)** şeirini **(Ağa Laçınlı «Əsərləri», Bakı-2012, səh.67)** Hüseyn Kürdoğluya həsr edib:

*Gəldim İşıqlıya mən ilk baharda,*
*Bu dağı nə zülmət, nə kölgə basar.*
*Günəş də arxayın batar ki burda,*
*Onun arxasında işıq dağı var.*

*Dərələr gecəylə mürgüləyəndə*
*Açılır üfüqün bəyaz səhəri.*
*Üzür aydınlıqda, üzür gəyəndə*
*Bizim İşıqlının şiş təpələri.*

*İldırım ilk dəfə burda şaxıyır,*
*İlk dəfə yağdırır bu dağ qarı da,*
*İlk dəfə kəkliklər burda oxuyur,*
*Oxudur qayıdan qonaqları da.*

*Budur, Ay közərdib qarın tığını,*
*Ulduzlar çinlənib buzun çinində.*
*Sanıram dünyanın çilçırağını*
*Saxlayıb İşıqlı qaya çiynində.*

Təqdim olunan hissənin ikinci bəndində Ağa Laçınlı *«gəyən» («üzür aydınlıqda, üzür gəyəndə»)* ifadəsi işlədib. Bu söz bir çoxlarına qəribə, bəlkə də, anlaşılmaz görünə bilər. *«Gəyən»* Qarabağda - Cəbrayıl Zəngilan arasında böyük düzün adıdır. Qurbani də yer adı kimi işlədib.

*Arazın o yan tayı,*
*Dirinin Gəyən tayı*
*Daşı qürbətə salar*
*Öküzün əyən tayı.*

Qurbani düzün - ərazinin yerini dəqiq göstərib. Diri dağının şimal üz yamacları qurtaran kimi Gəyən düzü başlayır. Ağa Laçınlı Gəyəni düz, düzənlik göz işlədikcə uzanan genişlik anlamında işlədib.

Düşünürəm ki, Ağa Laçınlının *«İşıqlı»* şeirinin *«Hüseyn Kürdoğluya»* ithafı ilə yazılması da müəllifin öz dostuna sadəcə ehtiramını bildirmir. Və şeir özü hər sətirin arxasınca yeriyən, dərinləşən mənalarla Hüseyn Kürdoğlunun obrazını təqdim edir. Bu şeirin əzəmi gücü üç obrazı özündə birləşdirir: İşıqlı dağını, Hüseyn Kürdoğlunu və Ağa Laçınlını - yəni müəllifi.

Şairin ruhu saf, sağlam olanda uğur onun haqdan gələn payı olur. Bir daha təkrar eləməyə dəyər ki, *«İşıqlı»* şeiri Ağa Laçınlının təkcə İşıqlı dağına dedikləri deyil, həm də Hüseyn Kürdoğluya dedikləridir:

*Dağ dağı qucubdur, dərə dərəni,*
*Aşağı bəzəkli, yuxarı büllur.*
*Qaldıra-qaldıra biri-birini*
*Zirvələr həmişə işıqlı olur.*

Ağa Laçınlının ruhuna ehtiramla yenə qayıdıram Hüseyn Kürdoğlunun əzəli obrazlar aləminə - təbiətlə qovuşan, təbiətin dili ilə danışan, tarixlə, həyatla səsləşən, insanın dünyasını gözəlləşdirən obrazlar aləminə. Yurd Hüseynə nə verib? Ən doğru cavab *«Ata yurdum»* **(1976)** şeirinin son bəndidir:

*Eşqimi tüğyanlı bir saz eylədin,*
*Könlümü coşdurub Araz eylədin;*
*Dürdanə tap dedin, qəvvas eylədin,*
*Bu sənət deyilən dəryaya məni.*

Hüseyn Kürdoğlunun təbiət lövhələrində bir nigaranlıq, bir şübhə də var ki, onun arxayınçılığını əlindən alır. O, hər vaxt narahatdır, necə eləsin ki, bu təbiət abidələri, bu qənirsiz gözəlliklər aləmi gözə, nəzərə gəlməsin. Yağı tamahına urcah düşməsin bu qənirsizliklər.

*Bu dağların qucağında bir maral otlar,*
*Ovçulardan uzaq yerdə yurd salar, otlar;*
*Onun ürkək baxışından, mərcan dişindən*
*Öz ömrünün bahasına zövq alar, otlar.*

Bu, Hüseyn Kürdoğlunun bir dördlükdən ibarət *«Tək maral»* **(1973)** şeiridir. Adam səksənir, hər misranın bir şıqqıltı, bir təhlükə gəlişindən xəbərini eşidir. ...Hələ yurdun qara günlərinə çox var. Yox elə də çox deyil. Hələ tək palıd yanacaq, Mil düzü vaxtsız qocalacaq, Yurd için-için talanacaq, səsinə Tanrıdan səda gəlməyən Boz Qurdun ulartısını şair varlığını parçalayan dərd kimi dinləyəcək.

*"Nə tez belə qocalmısan, Mil düzü»* **(Hüseyn Kürdoğlu «Seçilmiş əsərləri» I cild, Bakı-«Sabah»-2011, səh.323)** elegiyasını şair sonsuz ağrı ilə yazıb. Reallıq (mövcud durum) və irreallıq **(mistika)** bu şeirdə qarşı-qarşıya gəlir. Axı Tanrı **(mistika)** Mil düzünün **(yurdun)** bəxtini bütün səxavəti ilə vermişdi. Mil düzü taleyinə yazılmış bu uğurlu bəxti ilə səyyahların kitablarına düşüb. Sədi Şirazinin də səyahət yolunda Beyləqan xatırlanır **(Bax: Hacı Rafiq Əliyev «Sədi «Gülüstan»ında Azərbaycan fidanları» məqaləsi)**. Beyləqan-Mil düzü dəfələrlə yadelli işğalları ilə talan edilib, dağıdılıb, yenə dirçəlib. XX əsrin birinci yarısına şəhər abad gəlməsə də, Mil düzü barı-bərəkəti və bütün təbii gözəlliyi və zənginliyi ilə gəlib çıxmışdı. Sovet rejiminin qul əməyi - pambıqçılıq təzədən Mil düzünü taladı, onun təbii gözəlliyi məhv edildi və zənginliyi yoxa çəkildi.

*Büsatına tay tutmazdım hər düzü,*
*İgid yurdu, ər məskəni, ər düzü.*
*Torpağına dəymir daha nər dizi,*
*Aran-yaylaq karvanından əsər yox.*

*Küdrülərdə ağır sürü mələşməz,*
*Ayğırların şaha qalxıb güləşməz,*
*Fil gövdəli buğaların hölləşməz,*
*Çal-çağırlı dövranından əsər yox.*

*Şirinqumun, Şərbətsuyun şorlaşır,*
*Gurultudan qulağımız karlaşır.*
*Xəyal küsür, göz görsə də korlaşır,*
*Çarə tapan loğmanından əsər yox.*

*İlğım axan bozaq çölə bağ düşə,*
*Çəpərindən yol üstünə tağ düşə,*
*Xain gözə pambıq kimi ağ düşə,*
*Min bəhərli bostanından əsər yox.*

Ümumiyyətlə, əsəri bədii cəhətdən təhlil etmək fikrindən uzaq olsam da, deməliyəm ki, sözlərin ahəngi və mənaların məntiqi sırası acı, fəqət tarixi bir hekayət danışır. Canlı dilin obrazlı, arxaikləşməkdə olan sözlərindən sənətkarlıqla bəhrələnmə gözlərimin önündə Mil düzünün də canlı mənzərəsini yaradır. *«İlğım axan bozaq çöl»*ə dönmüş *«küdrülərdə ağır sürü»*lərin yoxluğu, *«torpağına dəymir daha nər dizi»* - dəvələrin nəslinin kəsilməkdə olması, *«fil gövdəli buğaların hölləşmə»*məsi, bir sözlə, bioloji müxtəlifliyin məhv edilməsi təkcə Mil düzünün yox, yurdun faciəsi kimi qavranılır.

***Arx-bərədən bağrın qazıq-qazıqdır.***
***Heç demirlər ana torpaq yazıqdır.***
***Mənim kimi halın yaman pozuqdur,***
***Məlhəmindən, dərmanından əsər yox.***

*Qəzetlərdə göründün bir gülüstan,*
*Bülbüllərin ayrılmadı gül üstən.*
*Yaman sözdən yanıb oldun külüstan,*
*Qaçqın düşən bağbanından əsər yox.*

*Heç bildikmi nə səpdik, nə yetirdik,*
*Yaxamızda metal «çiçək» bitirdik.*
*Babalardan nə nişan var - itirdik,*
*Qədim oğuz kurqanından əsər yox.*

**(Davamı 9-cu səhifədə)**

# USTAD YANAN OCAQDA

## ŞAİR HÜSEYN KÜRDOĞLUNUN HƏYATI VƏ YARADICILIĞI HAQQINDA MƏQALƏLƏR, XATİRƏLƏR, DÜŞÜNCƏLƏR

(Əvvəli 8-ci səhifədə)

Yaxalarda *«metal çiçək»*lər bitirmək dəbi kurqanları məhv elədiyi, dağıtdığı kimi ruhumuzu, varlığımızı da ölümcül yaralayıb diri zarıncı qoydu, milli düşüncə kodlarımızı da yaddaşımızdan sildi. Yurda, torpağa bir biganəlik hissi düşüncəmizi qapsadı. Əsər 1988-ci ildə yazılıb. Və tarix bundan gerisini gizləmədi. Üstümüzə yeriyən bəlalara qapılar açılmışdı. Çünki *«Odisseyin atını»* biz özümüz qapıdan içəri keçirmişdik.

Heç kim məni öz fikrimdən döndərə bilməz ki, hələ 70-ci illərdən başlanan **(«Tək palıd yanır» (Hüseyn Kürdoğlu «Seçilmiş əsərləri» I cild, Bakı-«Sabah»-2011, səh.294 - əsər 1974-cü ildə yazılıb)** həyəcan təbili Hüseyn Kürdoğlunun şair fəhmi ilə 1988-ci ildə artıq haraya çevrilmişdi.

Yanan tək palıd obrazında mən yenə yurdu görürəm. Sinəsi metal çiçəklilərin unutduğu yurdun öz içindən yanmasını görürəm: *«Gecənin bağrında bir palıd yanır. Meşədən aralı bir dağ başında; Alov dilim-dilim ərşə dayanır, Palıdın bitdiyi bulaq başında»* Hadisənin baş verməsi vaxtı - gecənin qaranlığı nəhəng imperiyanın siyasi zülmətini yada salır. Bu siyasi zülmətdə yurd sanki imperiyanın içərisində ögey bir adadır. Min illiklərlə yaşı ölçülən qocaman Azərbaycanın gənc istiqlalını vuran ildırımın odu sönmür: *«O yalqız qocanı vurub ildırım, Hələ çatmamışdı pöhrələr ona; Elə bil alışır göy şırım-şırım, Min illik bir ömür yetişir sona»*. Baş verən hadisə budur. Bundan sonra gəlir Palıdın həyat yolu, şirin xatirələr:

*Yayın oğlan çağı nə sərin idi,*
*Kölgəsi dağların quzeyi kimi.*
*Palıdın yaddaşı od tutub indi,*
*Yanır xatirələr muzeyi kimi.*

*O Keyvir bulağın ayna üzündə*
*Yarpaq da, bulaq da naxışlanardı.*
*Küsdürən oğlanın, küsən qızın da*
*Burda günahları bağışlanardı.*

Sonra yenə yanğının dərd çaları, ictimai məzmunu, etnosun varlığını yaşadan ruhu dil açıb danışır. Təkcə kök yanmır, yeni pöhrələrin cücərmə, bitmə ehtimalı da yanır. Yaddaş ütülür, düşüncə korşalır, mənəvi qısırlıq üçün münbit zəmin yaranır. Və bu yerdə şairin yanğı ilə - elə tək palıd yanğısı ilə boya-boy yaratdığı yalnızlıq obrazı çox mətləblərdən xəbər verir.

*O palıd yandıqca sevən, sevilən*
*Neçə gənc ürəyin nəğməsi yanır.*
*Alova baxdıqca eşidirəm mən,*
*Çoban tütəyinin naləsi yanır.*

*Köz düşür gözünə, sızlayır bulaq,*
*Söndürə bilməyir öz sirdaşını.*
*Sanki od püskürür vulkanlı bir dağ,*
*Yanğından qurtara bilmir başını.*

*Uçur qığılcımlar ulduzlar kimi,*
*Orman səsə düşür, quşlar oyanır.*
*Bir kimsə yanmasın yalqızlar kimi,*
*Gecənin bağrında tək palıd yanır!..*

Şairin döyüşü, mübarizəsi onun yaşamasıdır **(tərcümeyi-halıdır)**, ömürlüyüdür. Yeri gəlmişkən, dil-lüğət islahatçıları bu *«tərcümeyi-hal»* ifadəsinə də bir əncam çəkməlidirlər. Nə isə... Əsas odur ki, şair döyüş üçün, savaş üçün sözü ilə bu gün də meydandadırsa, sənin də **(mənim də, onun da)** kənardan qladiator döyüşlərini izləyib həzz alan Roma fermerləri sayaq *(oxu «senatorlar»ı)* baxmaq haqqın **(haqqımız)** yoxdur. Oljas Süleymenovu da Şumer meydanına çəkən elə borc hissi deyildimi? Oljasın Şumerlə bağlı dediklərini yaddaş üçün bir daha oxumaq pis olmazdı: *«Şumer. Teatr durbinləriylə dumanlanmış, qəlizməşmiş nadanlıq kosmosunda belə öz işığını itirməmiş, sehrli, mavi və yazılı çöl daşı kimi kələ-kötür, doğma Şumer. ...Bu yaxınlarda gecə zirzəmiyə düşdüm. Neçə ildir ki, Şumer arxivimi tabut kimi uzun və tutumlu mebel qutularına yığıb saxlayırdım. Qapı taybatay açılmış, qıfıl qoparılmışdı. Fənərlə işıq saldım. Yeri qara kağız külü örtmüşdü. Ətrafa çaxır şüşələri, konserv bankaları atılmışdı. Kimlərsə burda kef çəkib, məzə xatirinə əlyazmaları yandırmışdılar. Sütül-sütül oğlanlar, onların əzgin, yuxulu məşuqələri əlləriylə üzlərini örtərək, gözləri qamaşa-qamaşa arxiv tabutlarından gün işığına çıxırdılar.*

*Məni faktın simvolikası heyrətə saldı. Əlyazmalar, nəhayət ki, diri, aydın bir işıq saçaraq anbarın zülmətini qovurdu. Tarix müasirliyə kömək eləyirdi. Orada, anbarda mən bir həqiqəti anladım: əgər Şumerə görə sənin ciyərini çıxarırlarsa, sən onun yolunda vətən uğrunda döyüşdüyün kimi döyüşməlisən. Onun qarşısında Vətən qarşısında olduğu kimi cavab verməlisən»* **(Oljas Süleymenov «Az-ya», Bakı-1993, səh.168).** Bəlkə, elə bu axırıncı sözləri burada belə başa düşək: Şairin nə yazdığını Şumer mətni kimi oxuyaq. Axı *«Odissey atı»*nı **(on birinci ordunun timsalında)** biz özümüz qapıdan içəri gətirmişdik. Onun içərisindən çıxanlar darvazaları - ruhumuzun, milli varlığımızın qapılarını çoxdan açmış, ixtiyarımızı, haqqımızı işğal eləmişdilər. Tək palıd yanmış, Mil düzü talan olmuş, İki çay arası - vadi öz tarixi keçmişindən qopmuş, yurdumuz-ruhumuz örənimişdi... Və artıq Yurd qiyamət qapısının ağzında dayanmışdı. Boz Qurd da bu yurdun üstündə. O üzü göylərə dartınıb ulayır. Bu ulartını Tanrı eşidəcəkmi, hələ bilinmir. Şair isə eşidir, onun qəlbi parçalanır; On görə də *«Ulama, Boz Qurdum, Kür qırağında»* **(Hüseyn Kürdoğlu «Seçilmiş əsərləri» I cild, Bakı-«Sabah»-2011, səh.320)** - deyir:

*Boz qurdum, ulama Kür qırağında,*
*Kövrəltmə göyləri bu fəryad ilə!*
*Korluqmu çəkirsən öz ovlağında,*
*Yaxşı gün görmədin yaman ad ilə?*

*Kötüklər qaralan orman yerində*
*Özün də ulayan bir kötükmüsən?!*
*Dərd səni haqlamış yaman yerində,*
*Neçin gözlərini göyə dikmisən?*

Məcazlara bürünsə də, acı həqiqət elə bütün acılığı ilə görünür; qurdun faciəsi onun adının yamanlığı ilə bağlı deyil, yerinin, yurdunun talanmağı ilə bağlıdır. Axı el arasında deyilir ki, Qurd öz yerində - ovalığında ac qalmaz. Qəddar Siyasət özünün ikiüzlü təbiəti ilə qurdun özünə dəyməsə də onun mühitini məhv etməklə ölümünü labüdləşdirir. Şair Boz Qurdu *«kimsəsiz ixtiyar»* adlandırır, hiss olunur ki, ona yurdun qoca sahibi statusu verir. Hakiminin özü olacağı yerdə indi o heç nədir... Belə vəziyyətdə onun səsinin Tanrıya yetə biləcəyi də şübhəlidir:

*Kəsilən, quruyan min bir ağacın*
*Acı naləsimi bu yaralı səs?!*
*Kimsəsiz ixtiyar, yoxdur əlacın,*
*Göyə üz tutmaq da əbəsdir, əbəs!*

*Ormanlı günlərin səndən uzaqdır,*
*Nə əlin yetişər, nə ünün çatar.*
*Qocalmış dünya da bir yalquzaqdır,*
*Dindirmə, səsini səsinə qatar.*

*Tuğay meşələrdə dövran sürərdin,*
*Yanınca gəzərdi soyun, simsarın.*
*Şikar sarıdan da yox idi dərdin,*
*Dərdini çəkməzdin boranın, qarın.*

Boz Qurd mifoloji, mistik, tanrısal obraz olsa da, axı Qurd özü canlı varlıqdır. Təbiiliyi pozulmamış yurd onun kürküdür, talan edilməmiş yurd onun yem mənbəyidir. Şair istedadının gücü və mənəvi dünyasından gələn ruh enerjisi ilə real və irreal (həqiqi və mistik) obrazları bir-birinə qovuşdurur. Özünün düşüncə axarında hər iki obrazı bir araya gətirir. Ona qardaş deyir, yaddaşını oyatmaq üçün çay arası vadidə bir zaman sağlam təbiətin, ecazlı gözəlliyin ona qayğısız bir dünya olduğunu xatırladır:

*Soyuqda istiydi, istidə sərin*
*Yolkeçməz meşənin ana qucağı.*
*Qardaş, yaraların dərindir, dərin,*
*Gözündə parıltı sozalan çağı.*

*Yadına gəlirmi, hər iki tayda*
*Güzgüyə baxardı çinar gözəllər.*
*Əlvan quşlar kimi üzərdi çayda*
*Ayın işığında naxış xəzəllər...*

Bundan sonra *«Karvanı soyulan şahzadə qıztək göylərin altında»* üryan qalan Kürün taleyinə də işıq salınır. Məzmun ictimai mahiyyətdən, sırf cəmiyyətdaxili təzadlardan ekoloji tarazlığı pozulmuş təbiətə, eləcə də Kürə yönəlir:

*Karvanı soyulan şahzadə qıztək*
*Göylərin altında üryan qaldı Kür.*
*Ulama, Qurd lələ, dözməyir ürək,*
*Hıçqırdı, qəlbimi oda saldı Kür.*

*Bir nankor övladam, xəcalətimdən*
*Bilməm necə baxım üzünə Kürün?!*
*Payız küləyinə yalvarsam da mən,*
*Toz-torpaq doldurur gözünə Kürün.*

Şeirin bəzən daralan, bəzən sonsuz məkan və zaman boyu genişlənən meydanında sənətkar özü də misraları - bəndləri, ruhundan çağlayıb gələn duyğuları ilə ulayır, tapınacağını onu gözləyən daha betər bəlalardan xəbərdar eləmək istəyir:

*Hanı yaxa boyu uzanıb gedən*
*O min bir cəlallı yaşıl kəhkəşan?!*
*Bu gecəyarısı uladıqca sən*
*Fəryadın eylədi bağrımı şan-şan.*

*Ucadan ulama, eşidər yağı,*
*Kötüklər üstünə tökülər qanın.*
*Tətikdə dayanıb onun barmağı,*
*Səs salma, ay lələ, yoxdur ormanın!*

Nəhayət, şeirin sona çatması ilə şair də son sırtını göstərir. Açılır sandıqlar, tökülür pambıqlar. Döşü metal çiçəkli, plan xislətlilər üçün yurd elə onların şöhrət, tamah bazarıdır:

*Odur meşələri şam-şum eyləyən,*
*Döşü parıldayan torpaq düşməni.*
*Odur şüar deyən, nitq söyləyən,*
*Ocağın başında ocaq düşməni!*

*Boz qurdum, ulama, Kür qırağında,*
*Bu dərdə tablamaq çətindir, çətin!*
*Qeyrətin, hünərin zəfər çağında*
*Kor qalmaz ocağı bu məmləkətin.*
*Boz qurdum, ulama Kür qırağında!..*

Yetər ki, burada bir daha xatırladaq ki, əsər 1988-ci ildə yazılmışdı. Və artıq yurdun boğazlanmasına, qənimin məqsədinə qanla yetəcəyinə də az qalıb. Bir milyon nəfər insan nə yerdən, nə göydən kömək ala bilmir. İki çay arası vadi boyu dağılmış insan seli sözün həqiqi mənasında qiyamətin çılpaq, sərt dəhşətlərini yaşayır.

Şair fəhmi həmişə öncəgörmə hissiyyatı ilə zamanı qabaqlayır: *«Sırtı yoluq Boz Qurd»*un **(üzü işıqlı, nurlu)** - **«Odisseya»**sı zamanlarla döyüşə-döyüşə bizəcən gəlib, müxtəlif məna çalarları alsa da, yaddaş enerjisini qoruyub. Və yaddaşımızda bu gün də dipdiridir. Güc, qüdrət, enerji daşıyıcısı kimi...

Hələ ki, zaman bizi yeyib bitirə bilmədiyi kimi, biz də haqımızın zamanını hələ ki, gətirə bilməmişik. Ustadın ruhu şad, çağıraq sırtı yoluq Boz Qurdu:

*Ula, Boz Qurdum, ula, ulartınla dağı yar,*
*Sinəndə çalın-çarpaz şırım açan dağı yar,*
*Səsinə qənim olan zamanı yar, çağı yar,*
*Qardan, buzdan siyrilsin - baharım gəl, yazım, gəl!*
*Orxon-Yenisey boyu qaya-qaya yazım gəl!*

*Varlığın girov olub həsrətlərdə qalsa da,*
*Səsində çiçək-çiçək bitən güllər solsa da,*
*Sən mənim ruhumdasan illər ayrı salsa da,*
*Ey səsini min ildi gözlədiyim özüm, gəl!..*
*Canımda qalamağa od-ocağım, közüm, gəl!*

*Bircə ulartın bəsdi, gəlsə, daşı sındırar,*
*Oyadar yaddaşları, başsız başı sındırar,*
*Tarixin gözlərindən axan yaşı sındırar.*
*Dədə Qorqud, Manasdan çağlar-çağlar sözüm, gəl!*
*Hər yazımda, sözümdə neçə məna, yozum, gəl!*

*Gücdən düşsə varlığım, səsindən güc alaram,*
*Bir iynəlik işığa - ümidə uc alaram,*
*Bac vermərəm dünyaya - dünyadan öc alaram,*
*Sən mənim təpərimsən - bükülməyən dizim, gəl!*
*Yaddaşlarda əbədi, pozulmayan izim gəl!..*

*Bilirəm ki, ulasan dağlar tərpənər gələr,*
*Türkün əzəl dövranı, çağlar tərpənər gələr;*
*Qırılar xof qandalı, bağlar tərpənər gələr,*
*Üstümüzə yeriyən haqsızlara dözüm gəl!..*
*Səsindən nur götürsün mənim iki gözüm, gəl!*

*Ula, Boz Qurdum, ula, bizim ellər sevinsin,*
*Səsindən ərməğandı - əsən yellər, sevinsin,*
*«Salam türkün bayrağı» - deyən dillər sevinsin.*
*Çıxsın kədər yasından - dərddən, qəmdən üzüm, gəl!*
*Türkün sədaqət andı düz çörəyim, duzum, gəl!*

*Böyük çöldən yovşanın qoxusunu çək, ula,*
*Atillanın, Babəkin yuxusunu çək, ula;*
*Xələflinin sözünü, oxusunu çək, ula,*
*Tarixlərdən sorağım, həqiqətim, düzüm, gəl!*
*Çiçək açsın sinəmdə uca dağım, düzüm, gəl!*

...Qurdun uzun ulartıdan sonra bir ağız kəsik ulamağı da var. Bəlkə, həmin kəsik ulartı onun üz tutduğundan sonuncu umacağıdır. Bəlkə, ümidinin kəsildiyi, inamının son səsi elə bu kəsik ulartıdadır. Bu da həmin kəsik səs:

*Hardasan, gizləmə sırtını, qurdum,*
*Qaranlıq yurduna dartını... qurdum;*
*Parçala dişinlə, caynağınla yırt,*
*Bu durğun zamanın ardını, qurdum.*

Atam düz deyirdi... Canavar da - Qurd da elə insan tipidir xisləti ilə.

Ustad üzü nurlu - Sırtı yoluq Boz Qurdu çağırırdı. Bəlkə, elə ustadın çağırdığı mənə yol açdı. Sözün ağır düşüncə aləmindən keçməyimə... Bu da ustadla halallıq məqamı...

*Ey ustad, sənətin bir Turdu gördüm,*
*Səssiz harayların bir surdu gördüm;*
*Yazında, sözündə bir ulartı var,*
*Mən sənin ruhunda Boz Qurdu gördüm!*

*Ey ustad, sözünlə sirr sözü keçdim,*
*Neçə səhər açdım, gündüzü keçdim;*
*Qaranlıq gecələr məni üzmədi,*
*Sənin işığında ay üzü keçdim.*

*Sən ağı qaradan seçmisən, ustad,*
*Dünya tamahından keçmisən, ustad.*
*Kimsə deməsin ki, sən indi yoxsan*
*Mənim varlığıma köçmüsən, ustad.*

...Səhər açılırdı... Havanın tutqun olmağı səhərin qabağını kəsə bilmirdi. ...Hardasa bir qurd ulayırdı.

***Sentyabr, 2017***

